UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.3.154

HƏBİBƏ ALLAHVERDİYEVA*

# QƏDİM ORDUBADIN QRAFİK TƏSVİRLƏRİ XIX-XX ƏSR XARİCİ ÖLKƏ RƏSSAMLARININ YARADICILIĞINDA

*Məqalədə Naxçıvanın qədim tarixini, qədim mədəniyyətini özündə əks etdirən bölgələrindən olan Ordubadın XIX-XX əsr xarici ölkə rəssamlarının yaradıcılığında yer alan təsvirləri araşdırılmış, təhlil olunmuşdur. Bəhs olunan dövrdə tədqiqatçıların, səyyahların, rəssamların Naxçıvana etdiyi çoxsaylı səfərləri zamanı onlar həm də Muxtar Respublikanın müxtəlif bölgələri ilə yanaşı Ordubadda da olmuş, etüdlər etmiş, müxtəlif qrafik rəsmlər çəkmişdilər. Xarici ölkə rəssamları Ordubadın tarixi yerlərini səyahət müddətində naturadan və ya fotoşəkillər əsasında qravüralarında, akvarellə çəkdiyi əsərlərində bu tarixin qədim izlərini, təbiət lövhələrini əks etdirmişdilər. Ordubadın təbiətini, əhalisini, məişətini, etnoqrafiyasını əks etdirən əsərlərdən Gotorbenin "Ordubadın böyük mədrəsəsinin interyeri", Bocherin "Malik İbrahim oğlunun ibadətgahı", Slomunun "Ordubadın köhnə tatar məhəlləsi", D. Lancelotun "Əylisin görünüşü", "Ordubaddan bir görünüş", İ.P.Şeblikinin "Ordubadın bir guşəsi", "Pir Eyvazı" və başqa əsərlər maraqlı və yaddaqalan qrafik nümunələrdir. Realist üslubda yaradılmış bu əsərlər qədim tarixə malik yerlərin, təbiət gözəlliklərinin estetikasını özündə əks etdirməklə bərabər, tarixi, etnoqrafik baxımdan da böyük əhəmiyyətə malikdir.*

***Açar sözlər:*** *Ordubad təsvirləri, mənzərə janrı, rəsm əsərləri, qrafika, XIX-XX əsr təsviri sənəti*

Azərbaycan xalqı maddi və mənəvi xüsusiyyətləri özündə cəmləşdirən zəngin mədəniyyətə, qədim tarixə malikdir. Tarixən Azərbaycan xalqının yaratdığı maddi-mədəniyyət nümunələri xarici ölkə səyyahları, tacirləri və sənət adamları tərəfindən çox maraqla qarşılanıb. Naxçıvan tarixi, təbiəti və mədəniyyəti xarici ölkə tədqiqatçılarında, elm adamlarında, səyyahlarında maraq doğurub və tədqiqinə başlanılıb, eyni zamanda onlar səyahət müddəti Naxçıvanın diqqət çəkən tarixi-memarlıq abidələri, mədəniyyət nümunələrini təsvir etməyə çalışmışlar. XIX-XX əsrdə tədqiqatçıların, səyyahların, rəssamların Naxçıvana etdiyi çoxsaylı səfərləri zamanı onlar həm də Muxtar Respublikanın müxtəlif bölgələrində etüdlər etmiş, müxtəlif qrafik rəsmlər çəkmişdilər. Ordubadın tarixi yerlərini səyahət müddətində naturadan və ya fotoşəkillər əsasında rəsm edən xarici ölkə rəssamları qravüralarında, akvarellə çəkdiyi əsərlərində bu tarixin qədim izlərini, təbiət lövhələrini əks etdirmişdilər. Ordubad təbiətini, əhalisini, məişətini, etnoqrafiyasını əks etdirən qrafik nümunələr – Gotorbenin "Ordubadın böyük mədrəsəsinin interyeri", Bocherin "Malik İbrahim oğlunun ibadətgahı", Slomunun "Ordubadın köhnə tatar məhəlləsi", D. Lancelotun "Əylisin görünüşü", "Ordubaddan bir görünüş", İ.P.Şeblikinin "Ordubadın bir guşəsi", "Pir Eyvazı", "Ordubadda küçə", "Cümə məscidi" əsərləri bu zəmindəndir.

Səyahət gündəliyi əsasında Eduard Şarton tərəfindən yazılmış "Le Tour de Monde" –"Dünya səyahəti" kitabının 1891-ci ilə aid nəşrində Naxçıvan torpağına aid maraqlı rəsimlərə rast gəlinir. Burada Naxçıvanın qədim bölgəsi olan Ordubadda aid tarixi yerlərin, mədəniyyət nümunələrinin, təbiət mənzərələrinin realist təsviri maraq doğurur. Kitabda verilən təsvirlərdən ikisi tarixi-memarlıq nümunəsinin – Ordubad mədrəsəsi və Malik İbrahim pirinin təsviridir. Digər əsərlər isə Ordubadın müxtəlif bölgələrinin ümumi görünüşü, təbiət təsviridir.

"Dünya səyahəti" kitabında yer alan təsvirlərdən olan Gotorbenin "Ordubadın böyük mədrəsəsinin interyeri" adlı qrafik əsəridir. [Şəkil 1]. "Ordubad mədrəsəsi – Ordubad şəhərinin tarixi mərkəzində yerləşən XVIII əsrə aid tarixi mədrəsə binasıdır" [9]. "1714-cü ilə, Səfəvi hökmdarı Şah Sultan Hüseynin hakimiyyəti dövrünə aid olunan Ordubad mədrəsəsi zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir" [5]. Digər İslam ölkələrində də olduğu kimi Ordubadda Cümə məscidinin yaxınlığında yerləşən mədrəsə binası maraqlı memarlıq quruluşuna malik olmuşdur. "Mədrəsə bir sıra binalardan ibarətdir. Bunlar böyük düzbucaqlı həyətin ortasındakı hovuzun ətrafında yerləşir" [7, s.263].



Şəkil 1.Gotorbe. Ordubadın böyük mədrəsəsinin interyeri

Rəsm əsərində mədrəsənin dördbucaqlı formasında olan daxili quruluşa malik olması, kiçik otaqların baştağlarla ayrılmış eyvanları, həyətin ortasında yerləşən hövuz, təsvir olunmuş insan fiqurları və s. əsərin maraqlı kompozisiyasına dəlalət edir. Gotorbenin "Ordubadın böyük mədrəsəsinin interyeri" əsəri foto əsasında işlənmişdir. Xatirə xarakterli kitabda yazıldığı kimi səyahətdə olarkən onların mədrəsə ilə tanışlığı zamanı orada təhsil alan tələbələrin gələn qonaqları maraqla izləmələri fotoşəkildə, o cümlədən bu foto əsasında çəkilən rəsmdə də əks olunub.



Şəkil 2.Bocher. Malik İbrahim oğlunun ibadətgahı

Ordubad tarixinə, mədəniyyətinə aid digər bir əsər isə "Malik İbrahim oğlunun ibadətgahı" əsəridir. [Şəkil 2]. Qravür əsər rəssam Bocher tərəfindən fotoşəkil əsasında çəkilmişdir. Tünd rəngli dağların fonunda açıq tonların təzadlı görünüşü əsərə maraqlı bir görünüş qazandırmışdır. Əsərdə məzarlar arasından ibadətgaha gedən yol, kənarda dayanmış insanlar kompozisiyaya daha bitkin şəkil qazandırmışdır. Əsərin yer aldığı kitabda belə qeyd olunur :"Tezliklə tatar qəbirstanlığına gəlirik, yuxarıda məzarılığın əhatəsində ibadətgah yerləşir, Müqəddəs Malik İbrahim oğlunun ibadətgahı. Bu məzar gətirilən qurbanlar, Məkkədən, Həcc ziyarətindən və Kərbəla, müqəddəs torpaqlardan gətirilən daşlar, o cümlədən çoxsaylı təsbehlərlə örtülmüşdür" [7,s.264]. ("tatar" sözü, "azərbaycanlı" mənasındadır.A.H).



Şəkil 3. Slomun “Ordubadın köhnə məhəlləsi”

Xalq arasında deyilənlərə görə bu qəbir Kərbəlada şəhid olmuş imam Hüseynin qisas hərəkatının rəhbəri olmuş İbrahim Əjdərin oğlu Malik İbrahimin qəbridir. “Dini ədəbiyyatdan məlumdur ki, İbrahim Əjdər həlak olduqdan sonra övladları təqib olunmuş, bu səbəbdən də didərgin düşmüş, bəziləri Azərbaycana gələrək orada məskən salmış, oğlanlarından Malik Ordubadda, Malik Əjdər isə Laçın rayonunun Cicimli kəndində dəfn edilmişdir. Cicimli kənd qəbiristanlığında erməni işğalınadək salamat qalan və XI-XII əsrlərə aid edilən Malik Əjdər türbəsi bölgənin məşhur ziyarətgahlarından biri idi”[10].



Şəkil 4. D. Lancelot.“Ordubaddan bir görünüş”

D. Lancelotun “Əylisin görünüşü” adlı qrafik əsərində dağların fonunda ümumi kənd mənzərəsinin realist təsviri verilmişdir. “Əylisin qədim sakinləri buranı “Ağ Ulus” adlandırmışlar.”Ağ” sözü bu gün də dilimizdə qalan rəng mənasında izah oluna bilər, “Ulus” sözünün isə hələ qədim türk mənbələrində şəhər mənasında işlənməsi hamıya məlumdur” [6.s.94]. “Ağ ulu su” adı kimi də mənalandırılan bu şəhər “Dünya səyahəti” kitabında bol sulu, abad şəhər olmasından da bəhs olunur. Əsərdə müasir evləri ilə diqqət çəkən kənd mənzərəsi çayın kənarında təsvir olunmuşdur. “Əylis şəhəri müasirdir. O, XVII əsrdə farslarla türklər arasında gedən döyüşlərdə altında viran qaldı” [7, s.267].



Vue d'Akoulis. — Dessin de D. Lancelot, d'après une photographie.

Şəkil 5. D. Lancelot. “Əylisin görünüşü”

D. Lancelotun Ordubada aid digər bir əsəri “Ordubaddan bir görünüş” adlı əsərində mərkəzdə çinar təsviri verilmişdir. “Ordubadın çinarları möhtəşəmdir. Onlardan biri, bölgədə məşhur olan geniş bir meydanın ortasında yüksəlir. Onun gövdəsinin ətrafı 13 metr ölçüdədir. İçi boşdur və yarpaqlı budaqlarının kölgə saldığı bir ayaqqabıçı dükanını ehtiva edir” [7, s.262]. Yaxud, kitabın 260 səhifəsində yazıldığı kimi “Ordubad, min bulaq şəhəri və nəhəng çinarlar!”.

XX əsr xarici rəssamların yaradıcılığında Ordubad təsvirləri İvan Şeblikin yaradıcılığında da rast gəlinir. “O, tarix-memarlıq abidələrinin qiymətləndirilməsi məqsədilə 1928-ci ildə Bakıya dəvət edilir. Burada bir sıra elmi tədqiqat müəssisələrində, muzeylərdə olur. Eyni zamanda bəzi bölgələrdə aparılan arxeoloji qazıntılarda, bərpa işlərində yaxından iştirak edir və şəxsi müşahidələri əsasında onların rəsmlərini, eskizlərini yaradır. İ.Şeblıkinin həmin rəsm və eskizləri ölkəmizin müxtəlif guşələrində çəkilib” [4].



Şəkil 6.İ.Şeblıkin Pir Eyvaz guşəsi



Şəkil 7. Ordubadda küçə



Şəkil 8.Ordubadın bir

Qara rəngli qrafik təsvirlərindən başqa qrafikanın akvarel texnikası ilə çəkilmiş əsərləri də maraqlıdır. İvan Şeblik Ordubada aid əsərlərində “Ordubadın bir guşəsi”, “Pir Eyvazı”, “Ordubadda küçə” adlı əsərlərindən başqa “Ordubadda Cümə məscidi”, “Ordubad” əsərlərini akvarellə işləmişdir. “Rəssam “Pir Eyvazı” əsərini 1934-cü ildə yaratmışdır. Əsərdə təsvir edilən Eyvaz türbəsi – Ordubad rayonunda yerləşən tarix-memarlıq abidəsidir” [1s.54]. “İ.Şeblıkinin “Pir Eyvaz” rəsmi də (NTAM, SF №211, 32x43,5 sm) maraq doğurur.



Şəkil 9.İ.Şeblıkin. Ordubadda Cümə məscidi



Şəkil 10. İ.Şeblıkin. Ordubad

Bu türbə şəhərin cənub hissəsində qəbiristanlığın yanında yerləşirdi. Rəvayətə görə, Eyvaz Bektaşi sufi təriqətinin şeyxlərindən biri olmuş və XVI əsrdə yaşamışdır. Təəssüf ki, abidə Sovet hakimiyyəti illərində dağıdılmışdır" [3]. "Pir Eyvaz qəbiristanlığı bu qəbirin xatirəsinə keçirilən dəfn mərasimləri hesabına yaranmışdır. XVI əsrə aiddir. 20 yüzilliyin 80-cı illərində dağıdılmışdır" [8, s.90]. Rəsmdə bu qədim abidə qəbirsanlığın yaxınlığında, ağacların fonunda qara cizgilərlə təsvir olunmuşdur. "Əsər düzgün perspektiva, işıq-kölgə, gözəl kompozisiya quruluşu ilə diqqəti cəlb edir". [1,s.54]. [Şəkil 6]. Ümumiyyətlə dərin perspektiv görünüş onun əsərlərinin xarakterik xüsusiyyətlərindəndir. ""Ordubadın bir guşəsi" rəsmində (NTAM, SF №211, 32x43,5 sm, kağız, qrafika) köhnə şəhərin kiçik küçələrindən biri təsvir edilmişdir. Rəssam müdafiə divarlarının əzəmətini, giriş qapıları portalının monumentallığını göstərə bilmişdir. Bənzər süjetə "Ordubadda küçə" rəsmində də (NTAM, SF №430, 32x44 sm, kağız, tuş) rast gəlinir" [3].

İstər İvan Şeblikin əsərlərində, yaxud ondan əvvəlki xarici ölklə rəssamlarının yaradıcılığında yer almış Naxçıvanın və onun qədim şəhərlərindən olan Ordubadın qədim tarixi yerlərinin, tarixi-memarlıq abidələrinin, mədəniyyət nümunələrinin təsvir olunduğu bu əsərlər realist üslubda yaradılmışdır. Naxçıvannın tarixi-mədəni abidələrinə həsr olunmuş realist üslublu hər bir əsər, çəkilmiş rəsmlər, eskizlər bədii-estetik xüsusiyyətləri ilə yaddaqalandır. Çəkilmiş rəsm nümunələri də özlüyündə tarixi sənəd rolunu oynamaqla, Naxçıvanın qədim bölgələrinin orta əsr abidələrinin tədqiqi və eləcə də təbliği üçün böyük əhəmiyyətə malikdir. Realist rəssamlar tərəfindən təsvir edilən bu əsərlər özlərində tarixi əks etdirərək, tarixi əsərə çevrilir və özlüyündə tarixi "sənəd" rolunu oynamaqla təsvir olunan abidələri tədqiqi olunması üçün şərait yaradır, onun müəyyən vaxtlarda restavrasiyası üçün, bərpa işlərinin aparılması üçün əhəmiyyətli rol oynayır. Eyni zamanda tarixi-mədəniyyət abidələrini əbədiləşdirərək, tarixi boyu yaşamasına, təbliğ olunmasına imkan yaradır.

Çəkilən rəsmlərdə də əks olunduğu kimi Ordubad qədim tarixə, qədim mədəniyyətə malik gözəl şəhərlərdəndir. Əbəs yerə deyil ki, Ümumilli lider Heydər Əliyev bu qədim diyarı Azərbaycanın incisi hesab edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunduğu ildə bu qədim torpaq haqqında da sərəncam imzalamışdır. Belə ki, 21 fevral 2024-cü ildə imzalanmış "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında sərəncam qədim tarixə, mədəniyyətə göstərilən qayğı və diqqətin təcəssümü idi.

## ƏDƏBİYYAT


1. Аллахвердиева Х.Р. Древний и современный Нахчыван в творчестве художников мира. Проблемы науки. № 2 (61), Москва, 2021 год, с.52-58
2. Аллахвердиева Х.Р.Artistic reflection of historical and architectural monuments in theatrial decorative art. Науковий журнал, "Молодий вчений". № 3(103) Украина, Херсон, 2022, s.75-79
3. Əhmədov S. Rus rəssamı İ.P.Şeblıkinin əsərlərində Naxçıvan.Şərq qapısı qəzeti. 21 may 2014
4. Əliyev Z. Naxcivan tarixi rənglərin işığında. Mədəniyyət qəzeti. 30 sentyabr 2019

5.İsmayılova N. Dünənin məktəbi bu günün abidəsidir. Şərq qapısı qəzeti.3 fevral 2017

6.Kəlbizadə E. Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı). Naxçıvan, "Əcəmi". 2016. 200 s.

7. Le Tour de Monde. "Lahur", Paris,1891,423s.
8.Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008, 521s.
9.az.wikipedia.org/wiki/Ordubad_m%C9%99dr%C9%99s%C9%99si
10.az.wikipedia.org/wiki/Malik_%C4%B0brahim_piri

***Naxçıvan Müəllimlər İnstitutu**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı**
**Email:HabibaAllahverdiyeva@nmi.az**
**Email:habibe.allahverdiyeva@mail.ru***

**Habiba Allahverdiyeva**

## GRAPHIC ILLUSTRATIONS OF ANCIENT ORDUBAD IN THE CREATION OF FOREIGN ARTISTS OF THE XIX-XX CENTURIES

In the article, the depictions of Ordubad, one of the regions of Nakhchivan that reflect the ancient history and culture of the XIX-XX century foreign artists, were examined and analyzed. During the numerous visits of researchers, travelers, and artists to Nakhchivan in the mentioned period, they also visited Ordubad, as well as various regions of the Autonomous Republic, made studies, and drew various graphic paintings. Foreign artists who painted the historical places of Ordubad from nature or based on photographs during their travels reflected the ancient traces of this history and natural signs in their engravings and watercolor works. Among the works of artists reflecting the nature, population, everyday life, and ethnography of Ordubad are Gotorbe's "Interior of the Great Madrasah of Ordubad", Bocher's "Malik Ibrahim oglu's Chapel", Slomu's "Old Tatar Quarter of Ordubad", D. Lancelot's "View of Aylis", "A View from Ordubad", I.P. Sheblik's "A corner of Ordubad", "Pir Eyvaz" and other works are interesting and memorable graphic examples. These works, created in a realistic style, reflect the aesthetics of natural beauty, and are also of great importance from the historical and ethnographic point of view.

**Keywords:** *Ordubad images, landscape genre, paintings, graphic, XIX-XX century fine art*

**Габиба Аллахвердиева**

## ГРАФИЧЕСКИЕ ИЛЛЮСТРАЦИИ ДРЕВНЕГО ОРДУБАДА В ТВОРЧЕСТВЕ ЗАРУБЕЖНЫХ ХУДОЖНИКОВ XIX-XX ВЕКА

В статье рассмотрены и проанализированы изображения Ордубада, одного из районов Нахчывана, отражающие древнюю историю и культуру зарубежных художников XIX-XX веков. Во время многочисленных визитов исследователей, путешественников и художников в Нахчыван в указанный период они также посещали Ордубад, а также различные районы Автономной Республики, занимались исследованиями и рисовали различные графические картины. Зарубежные художники, рисовавшие исторические места Ордубада с натуры или по фотографиям во время своих путешествий, отразили древние следы этой истории и природные знаки в своих гравюрах и акварельных работах. Среди произведений художников, отражающих природу, население, быт и этнографию Ордубада, - «Интерьер большого медресе Ордубада» Готорбе, «Часовня Малика Ибрагим оглы» Бохера, «Старая татарская слобода

Ордубада» Слому, «Старая татарская слобода Ордубада» Д. Ланселота. Интересными и запоминающимися изобразительными примерами являются «Вид Айлиса», «Вид из Ордубада», «Уголок Ордубада» И. П. Шеблика, «Пир Эйваз» и другие произведения. Эти произведения, созданные в реалистическом стиле, отражают эстетику природных красот, а также имеют большое значение с историко-этнографической точки зрения.

**Ключевые слова:** *изображения Ордубада, пейзажный жанр, картины, графика, изобразительное искусство XIX-XX веков.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.06.2025**
**Son daxilolma tarixi:10.07.2025**